# Siyasi kommunikasiya və liderlik nümunəsi

**Beş il öncə sentyabr ayında başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi yalnız döyüşlər və ərazilərimizin düşmən tapdağından azad edilməsi ilə deyil, həm də informasiya müharibəsi ilə yadda qaldı.**

Bu müharibənin önəmli aspektlərindən biri Azərbaycan Prezidenti İlham Əliyevin dünya mətbuatına verdiyi müsahibələr və həmin müsahibələrdə göstərdiyi strateji kommunikasiya bacarığı idi. İlham Əliyev dünya mediası ilə apardığı mübarizədə həm ölkəmizin mövqeyini, həm də keçmiş Dağlıq Qarabağ münaqişəsinin hüquqi və tarixi əsaslarını dünyaya uğurla çatdırdı.

İkinci Qarabağ müharibəsi həm də informasiya müharibəsinin ön plana çıxdığı bir dövr oldu. Dünyanın hər tərəfindən çox sayda jurnalist və media orqanları Azərbaycanla Ermənistan arasında gedən müharibəni geniş şəkildə işıqlandırırdı. Bu müharibə yalnız hərbi əməliyyatlar ilə deyil, həm də məlumat axını ilə diqqət çəkirdi.

Prezident İlham Əliyev müharibənin gedişatında, xüsusilə sosial media və beynəlxalq mətbuat vasitəsilə Azərbaycanın mövqeyini birbaşa dünya ictimaiyyətinə çatdırmağı bacardı. Müharibənin ilk günlərindən etibarən İlham Əliyev müntəzəm olaraq dünya mətbuatına müsahibələr verərək Azərbaycanın haqlı mübarizəsini və beynəlxalq hüquqa əsaslanan mövqeyini vurğuladı. Bu yanaşma Azərbaycana beynəlxalq arenada güclü dəstək toplamağa imkan yaratdı.

Ali Baş Komandan İlham Əliyev müharibə zamanı yalnız hərbi mütəxəssis kimi deyil, həm də informasiya müharibəsinin ustası kimi çıxış etdi. 44 gün davam edən müharibə dövründə Prezident 11 ölkənin 26 KİV-inə müsahibələr verdi. Beynəlxalq hüququn prinsiplərinə, tarixi həqiqətlərə və siyasi reallıqlara əsaslanma həmin müsahibələrin məzmununu təşkil edirdi.

Müzəffər Ali Baş Komandan 44 günlük Vətən müharibəsi dövründə cəbhədə döyüşən Azərbaycan Ordusu ilə yanaşı, informasiya məkanında gedən müharibədə əzmlə, dəyanətlə mübarizə apararaq Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırdı. Vətən müharibəsinin müzəffər sərkərdəsi kimi öz qətiyyətli yanaşmaları ilə düşmən tərəfinə, həmçinin anti-Azərbaycan mövqeli xarici qüvvələrə ismarışlar göndərməklə qələbəyə doğru gedən yolda bütün maneələrin dəf ediləcəyinə, qarşıya qoyulmuş məqsədə tam nail olunacağına əminlik yaratdı. Müharibə dövründə orduya və xalqa verilən mənəvi ruh yüksəkliyinin arxasında məhz Ali Baş Komandanın çıxışları dururdu.

Dövlət başçısı bir çox nüfuzlu televiziya kanalına, xüsusilə CNN, BBC, "Euronews" kimi beynəlxalq media orqanlarına verdiyi müsahibələrdə hər zaman təmkinli və məntiqli yanaşma sərgiləyirdi. Azərbaycan Prezidentinin müharibə ilə bağlı çıxışlarında diqqətçəkən əsas məqamlar arasında Ermənistanın təcavüzkar siyasətinin ifşa edilməsi, müharibənin beynəlxalq hüquqa uyğun olaraq aparılması və Ermənistanın mülki əhalini hədəf almasının qəti şəkildə pislənməsi vardı.

İlham Əliyevin dünya mediası ilə apardığı "savaş" təkcə informasiya mübarizəsi deyil, həm də psixoloji bir mübarizə idi. Prezident öz müsahibələrində Ermənistanın və onun tərəfdaşlarının müharibəyə dair verdiyi təhrif olunmuş məlumatları təkzib edərək öz versiyasını təqdim edirdi. Dövlət başçısı Ermənistanın müharibədə uduzduqdan sonra başladığı "dezinformasiya" kampaniyalarını da ciddi şəkildə tənqid atəşinə tuturdu. Prezidentin müsahibələri dünya mediasında ciddi reaksiyalar doğurur və Azərbaycanın haqqını beynəlxalq arenada daha da gücləndirirdi.

Bir çox müşahidəçi İlham Əliyevin müharibə zamanı verdiyi müsahibələrin siyasi kommunikasiya və liderlik nümunəsi olaraq qiymətləndirildiyini vurğuladı. Müsahibələrində dövlət başçısı nəinki Azərbaycanın haqlı mövqeyini irəli sürür, həm də Ermənistanın atdığı yanlış addımları, beynəlxalq hüququn pozulmasını və Azərbaycanın milli maraqlarını çox açıq şəkildə izah edirdi. İlham Əliyev müharibə dövründə fərqli media qurumlarının müxtəlif suallarını cavablandıraraq, Azərbaycanın haqlı mübarizəsini və ərazi bütövlüyünü dünyanın hər bir küncünə çatdırmağa müvəffəq oldu.

Bu müsahibələr sırf diplomatik müstəvidə deyil, həm də beynəlxalq münasibətlərdə böyük təsir yaratdı.

İlham Əliyevin mesajları yalnız Azərbaycan xalqı və dövlətinin haqlı mövqeyini deyil, həm də ədaləti təmsil edən bir liderin imicini bütün dünyaya göstərdi. Bir çox beynəlxalq siyasi analitik Azərbaycan Prezidentinin müharibə zamanı dünya mətbuatına verdiyi müsahibələri müasir dövrün ən uğurlu diplomatik və informasiya mübarizəsi kimi dəyərləndirdi.

İlham Əliyevin İkinci Qarabağ müharibəsində dünya mətbuatına verdiyi müsahibələr sadəcə müharibənin gedişatını deyil, həm də müasir diplomatiyanın necə işlədiyini göstərən əyani nümunələrdən biridir.

İlham Əliyev müharibə dövründə dünya mediasına verdiyi müsahibələrlə həm ölkəsinin strateji məqsədlərini, həm də Azərbaycan xalqının iradəsini qlobal miqyasda təsirli şəkildə çatdırmağa müvəffəq oldu. Bu yanaşma gələcək münaqişələrdə informasiya mübarizəsinin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərdi.

Beləliklə, İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründə dünya mətbuatına verdiyi müsahibələr yalnız informasiya müharibəsi deyil, həm də liderliyin və diplomatiyanın yüksək səviyyədə təzahürü idi. Onun bu müsahibələri müharibə və sülh məsələlərində Azərbaycanın mövqeyini möhkəmləndirən və beynəlxalq aləmdə daha çox tanıdan mühüm addım oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 9 noyabr (№ 240).- S.17.